# Kamillik və müdriklik məktəbi

**Bakı Sağlamlıq Mərkəzində Əməkdar elm xadimi, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Zərifə xanım Əliyevanın həyat və yaradıcılığına həsr olunmuş anım mərasimi keçirildi. Öncə akademikin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.**




Mərkəzin icraçı direktoru Asiman Həsənov akademik Zərifə Əliyevanın zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolundan, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr verməsindən söz açdı. Bildirdi ki, Zərifə xanım tədqiqat işini traxomanın müalicəsi ilə bağlı məsələlərə həsr edib. 1968-ci ildən başlayaraq, məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başlayıb, bir sıra orden və medallara, mükafatlara layiq görülüb. Tibb elminin inkişafına mühüm töhfələr verərək, oftalmologiyanın aktual problemlərinə dair tədqiqatları ilə şöhrət qazanıb.

Azərbaycan Tibb Universitetinin oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur Akademik Zərifə Əliyevanın yüksək mənəvi keyfiyyətlərindən bəhs etdi. Alimin elmi-pedaqoji və ictimai fəaliyyətinin həkimlərin yeni nəslinin yetişməsinə və Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərdiyini qeyd etdi.

Tədbirin sonunda böyük xidmətləri ilə zəngin həyat yolu keçirmiş Zərifə Əliyeva haqqında hazırlanmış video çarx izlənildi. Video çarxda görkəmli alimin keçdiyi şərəfli ömür yolunun hər bir Azərbaycan vətəndaşı, alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi olduğu göstərildi. Akademikin çoxcəhətli elmi və tibbi fəaliyyətinin təkcə öz dövrü üçün deyil, bu gün üçün də mühüm əhəmiyyət kəsb etdiyi və aktuallığı vurğulandı. Onun görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, ümummilli lider Heydər Əliyevin həyat yoldaşı və xalqımıza İlham Əliyev kimi müzəffər lider bəxş edən ana obrazı canlandırıldı.

Anım tədbirindən sonra Fəxri xiyabanda akademik Zərifə xanım Əliyevanın xatirəsi yad edilərək, məzarı üzərinə gül dəstələri qoyuldu.

***Z.BƏŞİRQIZI, "Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 28 aprel.- S.10.